F. Köçərli adına Respublika
Uşaq Kitabxanası



**Mədəni təşəkkülümüzü, milli-mənəvi məfkurəmizi özündə yaşadan məbəd**

# Uşaq teatrı

Uşaq teatrının tarixi, yaranma səbəbləri, inkişafı, təbliği mövzusunda kütləvi oxucular üçün hazırlanmış metodik vəsait

**Bakı – 2025**

**Tərtibçi:** **Ruhiyyə Məmmədli**

**Mədəni təşəkkülümüzü, milli-mənəvi məfkurəmizi özündə yaşadan məbəd -** Uşaq teatrının tarixi, yaranma səbəbləri, inkişafı, təbliği mövzusunda kütləvi oxucular üçün hazırlanmış metodik vəsait / Azərbaycan Respublikası Mədəniyyət Nazirliyi, F. Köçərli ad. Respublika Uşaq Kitabxanası; tərt. ed. R.Məmmədli ixt.red. və burax. məsul Ş. Qəmbərova;– Bakı: 2025. - 27s.

**Ünvan:AZ-1022 Bakı şəh.,S.Vurğun küç.88;**
**E-mail:** info@clb.az.

**İnternet ünvanı:** **www.clb.az**

**©F. Köçərli adına Respublika Uşaq Kitabxanası, 2025**

## Giriş

Teatr pərdəsinin ulduzlu səması hərdənbir titrəyir, taxta səhnə üzərində sürünür. Uşaq səslərinin təmkinli uğultusu bayram və möcüzə intizarından xəbər verir. Xidmətçi-qızlar həyəcanlı, gecikmiş uşaqları qayğı ilə öz yerlərinə yerləşdirirlər. Və budur, nəhayət, sonuncu, 3-cü zəngin səsi yayılır, hər şey sükuta qərq olur. Bir anlıq gecə hökm sürür, sonra isə... hər şey itir. Və ancaq sehrli ay işığında nağıl qalır.

Teatra getməzdən öncə insanı bürüyən o həyəcanı xatırlamayan varmı? Mütləq uşaq varlığının kövrək və poetik adi nəsrində bilinməyən möcüzlər dünyası... İndi teatrlarda səhər tamaşalarında boş yerlər az qalır.

Uşaq teatrı xalqın mədəniyyətinin, inkişaf səviyyəsinin göstəricisidir. Odur ki, bu zəngin fəaliyyət sahəsinin yaranması xalqların, mədəniyyətlərin inteqrasiyası kimi qəbul olunur. Uşaq dünyası bəyaz, şəffafdır. Uşaqlar böyüklərdən fərqli bir dünyanın aşiqləridir. Böyüklər sözə, uşaqlar isə gözə daha çox üstünlük verirlər. Ona görə də uşaqlar səhnədə sözdən daha çox, hərəkətə, mimika və baxışlara, bir sözlə, teatr dili ilə desək, yaşama fəlsəfəsinə üstünlük verirlər. Bu virtual inam eyni zamanda uşaqların cəmiyyət həyatında baş verən hadisələrə daha tez reaksiya vermələrini ortaya qoyur. Uşaqlara reallıq, olanlar olacaqlardan daha çox maraqlıdır. Bu maraqla dolu dünyanın nazını çəkmək isə təkcə bir teatr kollektivinin mənəvi borcuna çevrilməlidir. Uşaqlar doğrudan da bizim gələcəyimizdirsə, onların qayğısına hər birimizin qalması gərəkdir.

Hər hansı bir xalqın mədəniyyətinə bələd olmaqla, onun mənəvi intelekti haqqında ilk təəssurat əldə etmək kifayətdir. Belə ki, binanın daxili və xarici arxitektura baxımından klassik görünüşü dövlətin teatra münasibətini, tamaşa ilə ünsiyyət sənətçilərin professional səviyyəsini müəyyən etməkdə, tamaşaçılarla tanışlıq isə həmin xalqın mənəvi dünyası, həyat tərzi, yaşayışı, sənətə qarşı diqqətini aşkarlamağa imkan verir.

Uşaq teatrları hər zaman körpələrin həyatında mühüm rol oynamışdır. Uşaqların gözü qarşısında göstərilən tamaşalar onların dünyagörüşlərinin inkişafında, əxlaqi dəyərlərinin yüksəlməsində çox mühüm rol oynamışdır. Teatr tamaşaçılarını Azərbaycan xalqının qəhrəman keçmişi ilə yaxından tanış etmiş, onlarda qəhrəmanlıq hissləri aşılamışdır. Böyük şəhərlərə gələn qonaqlar ilk növbədə həmin yerin teatrları, muzeyləri, tarixi abidələri ilə daha çox maraqlanırlar. Bakımızda da belə abidələr çoxdur və bu şəhərə gələnlər onun tarixi abidələrinə, gözəl binalarına heyran olurlar. Onlarla belə milli arxitektura nümunələri şəhərimizin gözəlliyini qat-qat artırır.



Tariximizi, mədəni təşəkkürümüzü, milli-mənəvi məfkurəmizi özündə yaşadan məbədlərdən biri də teatrdır. Dünənimizi, bu günümüzü canlandırıb gələcəyə aparan mənəvi yaddaş daşıyıcımız sayılan teatr artıq sənət ocağı olmaqdan çıxıb milli-mənəvi dərkimizə, kamilləşməmizə xidmət edib. Onun sayəsində mütərəqqi ideyaları, demokratiya, azadlıq, millilik və sülh kimi anlayışları dərk etmişik. Bu bəşəri ideyaların daşıyıcısı olan Azərbaycan teatrının bəlkə də ən böyük nailiyyəti elə budur. Milli teatrımız öz mənbəyini uzaq keçmişlərdən alır. Qədim xalq oyunlarımız və milli bayramlarımızdakı teatr nümunələri fikrimizin isbatıdır. Uzun zaman xalq yaradıcılığında yaşamış bu sənət zamanın axarında professionallıq pilləsinə qalxmışdır. Sənət fədailərinin məbədə çevirdiyi milli teatrımızın tarixində təbii ki, ilkin mərhələ olan xalq teatr və dram dərnəklərinin də müstəsna rolu vardır.

İncəsənətin muxtəlif nov janrları, muxtəlif nəsildən olan insanların, o cumlədən uşaqların və yeniyetmələrin bədiilik inkişafında muhum rol oynamışdır. Əgər görkəmli rəssamların, bəstəkarların və digər sənət adamlarının kecdiyi həyat yoluna nəzər salsaq gorərik ki, onlar sənət aləmində ilk uğurlu addımlarını məhz məktəbəqədər dovrdə atmış, boyuk sənətə gedən yolun cığırına duşmuşlər. Uc - beş yaşlarında cəkdikləri rəsmlərlə, qurduqları ev-eşikləri, aktyorluq sənəti, bəstələdikləri musiqi numunələri ilə boyuk sənətkarların rəğbətini qazanan istedadlı uşaqlar heyrət və heyranlıqla qarşılanmışlar.

“Hər bir uşaq kəşf olunmamış dunyadır” deyənlər də haqlıdırlar. Doğrudan da muxtəlif yaş dovrlərini kecən uşaqların ətraf aləmə tələb və cəmiyyət hadisələrinə, ətrafda olan əşya və obyektlərə, insanların peşələrinə, ozlərini necə aparmaqlarına xususi maraq gostərmələri, onların incəsənət sahəsindəki movzu, janr seciminə də musbət təsir gostərir. Apardığımız muşahidələr gostərir ki, məktəbəqədər dovrdə uşaqların əli qələm, karandaş tutduqları vaxtda, habelə ibtidai siniflərdə kicikyaşlı məktəblilər ətraf aləmdə gordukləri əşya və obyektlərin şəklini cəkməyə-rəsm işləməyə, onların formasını qurmağa, mövzunu səhnələşdirməyə daha cox meyl edirlər.



Erkən yaşlarında incəsənət zövqünü və meyilliliyini yaradan, uşaqlarda gözəllik hissini inkişaf etdirən teatrın mədəni rolu barədə danışsaq, tərbiyəvi əhəmiyyətini qeyd etməmək olmaz. Psixoloqların ən yeni tədqiqatlarını nümayiş etdirdiyi kimi, uşaqlar ən yaxşı oyun prosesində əldə etdiyi bilikləri mənimsəyirlər. Eyni zamanda, söhbət təkcə akademik biliklərə yox, həm də mənəvi-etik məsələlərə aiddir. Teatr oyun deyilsə, nədir bəs? Səhnədə personajlarla birgə həyəcan keçirərək, uşaqlar rolları onlarla birgə yaşayır və həyati vəziyyətlər onların şüurunda həkk olunur. Təhsil sahəsində ekspert şərh edir: Teatr - uşaqda həyati proqram formalaşdıran son dərəcə mühüm məfhumdur. Uşaq oynamır - o, bu vəziyyəti hiss edir, yaşayır. Uşaqları teatra aparmaq, onlarla birgə getmək, baxılan tamaşaları mütləq müzakirə etmək çox vacibdir. Axı uşaqlar gördüklərinə tənqidi yanaşa bilmirlər. Eyni zamanda, böyüklər səhnədə baş verənlərə qiymət verərkən, olduqca ehtiyatlı və təmkinli olmalıdırlar. Çünki uşaq böyüyün mövqeyini qavraya və ehtiyatsız olaraq deyilən söz uşağın səhnədə sehrli aləm haqqında münasibətini tənqidi səviyyəsinə çatdıra bilər.

Paytaxt Bakının mədəniyyət ocaqları sırasında uşaq və yeniyetmələrin sevimli ünvanına çevrilmiş Bakı Uşaq Teatrı fəaliyyət göstərir. Bu teatr kiçik tamaşaçıların bədii təfəkkürlərinin formalaşmasında xüsusi rol oynamaqla bərabər, maraqlı və həm də çətinliklərlə dolu on illik bir zaman məsafəsini qət edib. Teatr hazırda H.Sarabski adına Bakı Mədəniyyət Evinin binasısında yerləşir. 70 nəfərə yaxın peşəkar və həvəskar aktyorları, həmçinin uşaq mütəxəssislərini bir səhnəyə toplayan teatrın repertuarındakı səhnə əsərləri əsasən xalq nağılları əsasında yaranıb. Bunlarla yanaşı, uşaqların dövlət atributlarına vətəndaşlıq məhəbbətini özündə əks etdirən bir neçə əsər də səhnələşdirilib. Kollektivin uğuru təkcə balacaların və yeniyetmələrin zövqünü oxşamaq deyil, onlarda vətənpərvərlik duyğularının aşılanması istiqamətində maarifləndirici və tərbiyəedici vasitələrdən istifadəni də əsas məqsədə çevirmək məharətidir.

Uşaq mütəxəssislərini bir səhnəyə toplayan teatrın repertuarındakı səhnə əsərləri əsasən xalq nağılları əsasında yaranıb. “Turp” xalq nağılı motivlərində səhnələşdirilmiş “Gücümüz birliyimizdədir” (nağıl – tamaşa), personajları – Keçəl, Kosa və Təkənin zarafatlarından ibarət “Keçəlin toyu”, “Xoruz və padşah” nağılının səhnə təcəssümü olan “Əhmədin yuxusu”, Araz adlı gəncin sehirli çarıqların köməyi ilə nağıllar aləminə düşərək şahın göstərişlərinə əsasən dünyanın üç ən şirin sözü axtarmaq

məcburiyyətində qalması və nəhayət, onları tapıb misralandırmasından, beləliklə, öz ana dilinə məhəbbətini göstərməsindən ibarət “Sehirli çarıqlar” və s.

Bununla yanaşı, uşaqların dövlət atributlarına vətəndaşlıq məhəbbətini özündə əks etdirən “Vətən”, həmçinin bolqar yazıçısı P.Pançevin eyniadlı əsəri əsasında hazırlanmış “Əkizlərin nağılı”na, vərəmə qarşı mübarizəyə həsr edilən “Qalan ömrün ilk günü”, Beynəlxalq Qızıl Xaç Komitəsinin Azərbaycandakı nümayəndəliyinin sifarişi ilə hazırlanan “Xaş – xaşın göz yaşı”, Avropa Şurasının respublikamızdakı mərkəzi ofisinin birgə layihəsi əsasında təqdim olunan “Şapalaqsız gün” və digər səhnə əsərlərinə də eyni maraq və həvəslə tamaşa edirlər.



Paytaxt Bakının mədəniyyət ocaqları sırasında uşaq və yeniyetmələrin sevimli ünvanına çevrilmiş Bakı Uşaq Teatrı fəaliyyətə başladığı gündən öz kiçik tamaşaçılarının bədii təfəkkürlərinin formalaşmasında xüsusi rol oynamaqla bərabər, maraqlı və həm də çətinliklərlə dolu uzun zaman məsafəsi qət edib. Əsasən bağça və məktəbyaşlı uşaqların maraq göstərdiyi mədəniyyət ocağının peşəkar kollektivi gələcəyimiz olan uşaqların zövqünü oxşayan, maarifləndirici və tərbiyyəvi əhəmiyyət daşıyan əsərlərlə hər zaman onları sevindirirlər. Bakı Uşaq Teatrı 2001-ci ildə yaradılıb. 2002-ci il mayın 1-dən İntiqam Soltanın direktor-bədii rəhbər təyin olunması ilə fəaliyyətə başlayıb. Bakı Uşaq Teatrı 2001-ci il aprel ayının 9-da Bakı Şəhər İcra Hakimiyyəti başçısının 260 saylı sərəncamı, Bakı Şəhər Mədəniyyət və Turizm İdarəsinin Rəisinin 26 aprel 2002-ci il tarixli 32 saylı əmri ilə yaradılıb. Bu günə qədər teatrda 100-ə yaxın yüksək bədii keyfiyyətə malik tamaşa hazırlanıb.Teatr Cənubi Qafqazda yeganə peşəkar uşaq teatrıdır. Fəaliyyət göstərdiyi müddətdə özünə çox böyük sayda tamaşaçı auditoriyası toplayan teatr bir sıra dövlət tədbirlərində və beynəlxalq teatr festivallarında uğurlu çıxış edərək diplom və mükafatlara layiq görülüb. Azərbaycan Respublikası Mədəniyyət Nazirliyi ilə yanaşı, Gənclər və İdman, Ədliyyə, Səhiyyə, Əmək və Əhalinin Sosial Müdafiəsi nazirlikləri də teatrla birgə layihələr həyata keçirir. Teatr bir sıra beynəlxalq təşkilatlarla da əməkdaşlıq edir. Bunlardan Beynəlxalq Qızıl Xaç Komitəsini, Avropa Şurasının Azərbaycan Ofisini, BMT-nin Narkomaniyaya qarşı mübarizə İdarəsinin Bakı Ofisini göstərmək olar. Teatrda 70-ə yaxın uşaq mütəxəssisi çalışır. 2009-cu ilin noyabr ayında Bakı Uşaq Teatrı nəzdində xüsusu qayğıya ehtiyacı olan uşaqlardan ibarət teatr studiyası yaradılıb. Qısa fəaliyyəti dövründə bu studiya respublikamızda keçirilən əlilliyi olan uşaq və gənclərin inteqrativ tamaşalarının 4-cü

milli festivalında, Moskvada keçirilən sağlamlığı məhdud olan şəxslər üçün gənclərin 2-ci beynəlxalq yaradıcılıq festivalında uğurla çıxış etmiş və diplomla təltif olunub. Bakı Uşaq Teatrının bədii-rəhbəri və direktoru İntiqam Soltan və burada çalışan mütəxəssislər, rejissorlar, aktyorlar, bəstəkarlar, rəssamlar müxtəlif bədii və sənədli filmlərdə , eləcə də Azərbaycan televiziyalarında istehsal edilən müxtəlif seriallarda böyük iş təcrübəsinə malikdirlər.Bakı Uşaq Teatrı 2008-ci il mayın 23-nə kimi Dənizkənarı Milli Park ərazisindəki binasında fəaliyyət göstərib. 2008-ci il may ayının 24-dən 2013-cü il mart ayının 31-nə kimi Hüseynqulu Sarabski adına mədəniyyət evinin binasında yerləşib. Hazırda Suraxanı rayonu Qaraçuxur qəsəbəsində Qurban Abbasov adına mədəniyyət evində yerləşir. Teatr 2020-ci ildən Bakı Uşaq və Gənclər Teatrı adı altında fəaliyyətini davam etdirir. Kollektivin nailiyyətləri təkcə balacaların və yeniyetmələrin zövqünü oxşamaq deyil, onlarda vətənpərvərlik duyğularının aşılanması istiqamətində maarifləndirici və tərbiyyəedici vasitələrdən istifadəni də əsas məqsədə çevirmək məharətləridir.Martın 10-u təkcə teatrımızın deyil, həm də mədəniyyətimizin bayramıdır. Həmin tarix hər il Azərbaycan teatrının yaranması günü kimi qeyd olunur. Ümumiyyətlə, mədəniyyətimizin dövlət tərəfindən himayə olunmasının ən gerçək və konseptual forması ümummilli lider Heydər Əliyevin respublikamıza rəhbərliyi dövründə daha əhatəli miqyas almışdır...

Xalqımızın milli-mənəvi irsini zənginləşdirən sərvətlərdən biri də oyun-tamaşa mədəniyyətidir. Bugünkü peşəkar səhnə sənətimiz məhz uşaq oyun-tamaşalaının, təşəkkül taparaq böyük inkişaf yolu keçib. İnkişaf yolunu keçə-keçə formalaşıb. Uşaq teatrı xalqın mənəvi varlığını, idrakının təkamül mərhələlərini, dünyanın dərkolunmaz hadisələrinə münasibətini, əsatir və folklor mədəniyyətinin estetik prinsiplərini müxtəlif məzmun və formalarla təcəssüm etdirən oyun vasitələrinin, üslub və janrlarının bədii toplumudur. Uşaq teatrının öz estetikası, öz poetikası xüsusiyyətləri, öz oyun-üslub parametrləri, ölçüləri, öz səhnətamaşaçı, mətn-ifaçı prinsipləri var. Bütün bunlar Azərbaycanda peşəkar dramaturgiyanın təşəkkülünə və bir qədər sonra dünyəvi teatrın yaranmasına səbəb olub.

Milli mədəniyyətimizin inkişafında, vətənpərvərlik hisslərinin aşılanmasında, yüksək əxlaqi keyfiyyətlərin, milli və ümumbəşəri dəyərlərin təbliğində müstəna rol oynamış Azərbaycan teatrı xalqımızın azadlıq və müstəqillik uğrunda mübarizəsinə öz töhfəsini vermişdir. Azərbaycan öz dövlət müstəqilliyini bərpa etdikdən sonra milli teatrımızın inkişafı üçün geniş perspektivlər açılmışdır. Hazırda teatrlar müstəqil dövlətimizin qarşısında duran mühüm vəzifələrin yerinə yetirilməsində mühüm rol oynayır və yaxından iştirak edirlər. Şagirdlər arasında teatrların təbliğini gücləndirmək

və onları bu sənət ocaqlarının fəaləyyəti ilə daha yaxından tanış etmək, teatrlara getməyi ənənə halına salmaq məqsədilə kitabxanada müxtəlif adda tədbirlər keçirilə bilər. Bunlardan biri rəsm müsabiqəsidir. "Uşaqlar və teatr rəsmlərdə" adlı rəsm müsabiqəsində uşaqlar müxtəlif teatrlarımızın binasınn rəsmlərini, oraya məxsus əşya və atributları, tamaşa anını, nağıl personajlarının və teatr ustadlarımızın rəsmini çəkirlər. Münsiflər tərəfindən fərqləndirilən rəsmlər divardan asılır və iştirakçılar mükafatlandırılır.

Milli teatrlarımızı gənc nəslə tanıtmaq, sevdirmək, milli dəyərlərimizi, tariximizi onlara daha səlis şəkildə çatdırmaq üçün kitabxanada kitab müzakirəsi, oxucu konfransı, icmal, "dəyirmi masa", oxucularla söhbət, sorğu, rəsm və digər müsabiqələr, ədəbi-bədii gecə də keçirilə bilər. Uşaq teatrı mövzusunda dəyirmi masaya alimlər, tarixçilər, teatrşünaslar, folklorşünaslar, incəsənət xadimləri, aktyorlar, müəllimlər, ali məktəb tələbələri və s. dəvət edilirlər. Tədbiri açan kitabxanaçı hər kəsi salamladıqdan sonra mövzuya uyğun olaraq çıxışa başlayır və teatrlar haqqında məlumat verir.



Azərbaycan teatr sənətinin qədim və zəngin tarixi vardır. İnsanın əmək fəaliyyəti ilə bağlı oyunlar və rəqslər, mövsüm bayramları, aşıq sənəti, meydan mərasimləri, "Qaravəlli" tipli müxtəlif tamaşa növləri xalq reatrının əsasını müəyyən etmiş, milli teatrın gələcək inkişafı üçün möhkəm zəmin yaratmışdır.

Azərbaycan və rus bölmələrindən ibarət kollektiv öz yaradıcılıq fəaliyyətində məktəblilərin, yeniyetmələrin və gənclərin etik-estetik tərbiyəsini başlıca istiqamət kimi götürmüşdür. Yaradıcılıq axtarışlarında teatrın yeni dramaturqlarla əlaqəsi daha da möhkəmlənmiş və bu, səmərəli nəticələr vermişdir. Teatr daim öz professonal səviyyəsini yüksəldir, zamanla səsləşən yüksək ideyalı, böyük tərbiyəvi əhəmiyyətə malik maraqlı tamaşalar hazırlayır.

Xalqımızın milli-mənəvi irsini zənginləşdirən sərvətlərdən biri də uşaqlar arasında oyun-tamaşa mədəniyyətidir. Bugünkü peşəkar səhnə sənətimiz məhz xalq oyun-tamaşalarının, geniş mənada meydan teatrının zəminində təşəkkül taparaq böyük inkişaf yolu keçib. Meydan teatrının öz estetikası, öz xüsusiyyətləri, öz oyun-üslub parametləri, ölçüləri, öz səhnə-tamaşaçı, mətnifaçı prinsipləri var. Bu nəzəri əsasların toplu halında öyrənilməsi, fundamental elmi şəkildə araşdırılması xalqımızın dərin qatlı mənəvi-mədəni irsinin zənginliyinə geniş üfüqlər açır. Bütün bunlar

Azərbaycanda peşəkar dramaturgiyanın təşəkkülünə və bir qədər sonra dünyəvi teatrın doğuluşuna səbəb olub.

Teatrı azyaşlı uşaqlara da tanıtmaq və sevdirmək də çox vacibdir. Bu məqsədlə kitabxanada azyaşlı məktəblilər və bağça uşaqları arasında "Gəlin tamaşa quraq" adlı müsabiqə keçirilə bilər. Uşaqların iştirakı ilə tamaşa-müsabiqə "Nağıl otağı"nda keçirilir. Otaq müxtəlif dekorlarla və nağıl personajları ilə bəzədilir, uşaqlar səhnəyə uyğun geyinirlər. Qaliblər münsiflər heyəti tərəfindən mükafatlandırılır.



Uşaq teatrları mövzusunda kiçik yaşlı oxucular arasında səhnəciklərin, səhərciklərin təşkili məqsədəuyğundur. Nümunə üçün sizə çox sevilən mərhum kuklaçımız Ruslan Həsənovun qələmə aldığı "**Ağca və sarıca və ya dostluğun qüdrəti**" adlı əsl dostlara və dostluğa ithaf olunan tamaşanın ssenarisini təqdim edirik. İştirakçılar: Ağca – cücə Xoruz - Ağcanın babası Sarıca – tülkü balası Tülkü – Sarıcanın babası Müqəvva (Həmdə) Albalı ağacı

Aparıcı: Tülkünün yuvasının bir tərəfində süd bidonu, quş lələkləri, bir tərəfdə isə nağara atılıb. Sarıca süd bidonunun içinə girib süd içir. Tülkü gəlir.

Tülkü: Sarıcam, nəvəciyim gizləndiyin yerdən çıx görüm! Sarıca: Burdayam baba! Tülkü: Artıq böyümüsən, ova çıxmalısan. Sarıca: Ova? Nə ovuna?

Tülkü: Ya dovşan, ya da cücə ovuna.

Sarıca: Yox mənə nə dovşan nə də cücə istəmirəm. Mən süd istəyirəm.

Tülkü: Ay yazıq sən onların əlinə keçsən bilirsən səni nə günə qoyarlar? Balaca yadında saxla sən aldatmasan, səni aldadarlar.

Sarıca: Babacan, bu dediyin cücə nədir axı?

Tülkü: Cücə, sarı yumağa oxşar iki ayaqlı, balaca qanadlıdır. Görən kimi lap ağzın sulanır. Əvvəl gərək xoruzu aldadasan. İndi sənə mən bir neçə fənd öyrədəcəyəm. Tülkü olmaq hünərdir, Mahir olmaq gərəkdir. Hamıya badalaq gəl, Kələkbazlıq sənətdir. Cəldliklə üstünük biz, Taledən küskünük biz. Təbiətə bəzəyik, Ağılda üstünük biz.

Sarıca: Baba mən cücə ovuna gedirəm.

Aparıcı: Tülkü balası tez yuvadan çıxıb qaçır.

Tülkü: Qaç, kəşfiyyat apar. Sonra fənd işlədib cücəni xoruz ilə birlikdə götürərik. Əla nahar olacaq. Səhnəyə ağca gəlir. Toyuq hininin bir tərəfinə buğda-arpa yığılıb. Ortada su qabı var.

Ağca: Babamın gəlişi üçün şam yeməyini hazırladım.

Xoruz: Ağca! Hardasan, nəvəciyim? Al sənə soxulcan gətirmişəm. Görüm sən bununla nə edəcəksən.

Ağca: Əvvəlcə onu sorğu-suala tutacağam.

Xoruz: Eh ay bala, heç xoruz – toyuq da soxulcanla söhbət edər? Onları dimdikləyib yemək lazımdır. Balacan yadında saxla toyuq və xoruzların qənimi olan heyvan tülküdür. O, sarışındır, quyruğu şələ, dişləri itidir. Əlindən qurtarmaq çətindir. Eybi yox tülkü ovu mövsümünə az qalıb. İnsanlar onlara dərs verəcəklər.

Ağca: Babacan, yəni insanlar belə cəsurdurlar?

Xoruz: Bəli, insanlar cəsur və tədbirlidirlər. Xoruz yatır. Ağca moruq yığmağa gedir. Sarıca gəlir. O müqəvvanı görüb qorxur. Birdən ağcanı görür.

Sarıca: Sənin adın nədir? Ağca: Mən Ağcayam. Bəs sənin adın nədir?

Sarıca: Mənsə sarıcayam.

Ağca: Sən niyə belə əsirsən? O, müqəvvanı göstərib deyir: Yoxsa sən insanlardan qorxursan?

Müqəvva: Sakit olun uşaqlar. Mən insan deyiləm, müqəvvayam. Tanıyanlar mənim varlığımı hiss etmirlər. Tanımayanlar isə qorxurlar. Qorxu yaratmaq üçün əynimə əsgi-üsgü geydiriblər. Bu cındırlar məni qızdırmır...

Sarıca: Ürəyimi sıxma, biz səni qızdırarıq. Sarıca sən onun ayaqlarını ört, mən də boynunu sarıyım.

Müqəvva: Çox sağ olun balacalar. Canım qızışdı. Amma bayaq siz çəkişəndə yaman üşüyürdüm. Yanımda nəcib, mülayim, ürəyi yumşaq olanda mən də yavaş-yavaş canlanıram. Gəlin sizə maraqlı oyun öyrədim. Bu oyunu sizin kimi balalar oynayır. Yerdəki işıldaquşları yığıb göyə tullayın, ulduz kimi yansınlar.

Sarıca: Olar moruqları yığıb göyə ataq? Hər ikisi moruqları toplayıb göyə tullayırlar, bütün səma moruq talasına dönür. Onlar birlikdə mahnı oxuyurlar. Göy üzü ulduzla dolsun, Dostluğumuz möhkəm olsun. Gülüş bizdən gen gəzməsin, Moruq payı bizim

olsun! Ulduzlardan çələng düzək, Moruqlardan səbət hörək. Yarı sənin, yarı mənim, Dostluğunsa qədrin bilək.

Müqəvva: Dünyada ən gözəl şey dostun olmasıdır. Deməli, arxan var, dövlətin var. Mahnı deyin, rəqs edin, Yorulmayın, qurumayın, Müqəvvaya çevrilməyin. Sarıca: Bizə rəqs etməyi öyrətməyiblər.

Müqəvva: Mən sizə öyrədərəm. Bu heç də çətin deyil. Müqəvva, Sarıca, Ağca oxuyub, rəqs edirlər. Qızılı Sarıca bala, Pambıq kimi Ağca bala, Nə yaxşı ki, siz gəldiniz, Uyuğun qəlbini isitdiniz. Qəlbi təmiz balalarım, Dostluqda lap möhkəm olun. Küsüşməyin, dalaşmayın, Həmişə bir yerdə olun.

Sarıca: Mənim babam da çoxlu mahnı bilir. "Cib-cib cücələrim, mənim qəşəng cücələrim" mahnısını hər gün özü üçün zümzümə edir. Ağca: Sən bir işə bax. Elə mənim babam da bu mahnını çox sevir. Hər səhər məni bu mahnı ilə yuxudan oyadır. Sarıca: Doğurdan? Bilirsən, Ağca, mənə elə gəlir ki, babalarımız eyni mahnı oxuyurlarsa, deməli, onlar dostdurlar. Mənim babamın gözləri çox mənalıdır. Yerişi bax belədir. Tülkünün yerişini göstərir, hər küncü pusur.

Ağca: Mənim babam isə çox ciddidir. Bax, belə əda ilə gəzməyi var. Xoruzun yerişini göstərir.

Sarıca: Onlar ayrı ayrı xasiyyətdədirlər. Bilirsən, Ağca gəl hər gün bir-birimizə qonaq gedək. Ağca sarıcagilə, sarıcada ağcagilə gedir. Babaların onlara münasibəti onları çaş – baş salır. Onlar qaçıb müqəvvanın yanına gəlirlər. Onların dostluğu Müqəvvaya çox gözəl təsir edir. Quru ağac çiçəklənib albalı ağacına dönür.



Bu kiçik həcmli əsərlərdən biri də Tofiq Ağayev tərəfindən qələmə alınan "Başını itirmə, dovşan" adlı səhnəcikdir. Səhnəcikdə iştirak edirlər: Bala dovşan, Ana dovşan, Ana ayı, Meymun, Canavar, Tülkü,Tısbağa. Çəmənlikdə bir ev var. Orada Ana dovşan öz balası ilə yaşayır. Bala dovşanla tısbağa həyətdə oynayır. Birdən top meşəyə tərəf yuvarlanır. Tısbağa topun arxasınca gedir.

Bala dovşan: - Ana, olarmı mən də topu axtarmağa gedim?

Ana dovşan: - Get, ancaq çalış ki, tülkünün, canavarın əlinə keçməyəsən.

Bala dovşan: - Mən bərk getməyi bacarıram. Qaçıb özümü düşməndən qurtararam.

Ana dovşan: - Ayaqlarınla öyünmə. Unutma ki, əsas başdır, ağıllı baş. Çalış onu itirməyəsən.

Bala dovşan meşə cığırı ilə gedir. Arada dayanıb baxa-baxa, hanı mənim topum, deyirdi.

Bala ayı: - Mən burdayam! Bala dovşan: - Top danışır?! Ola bilməz! Yəqin qulağım səsə düşüb.

Bala ayı: - Yox, yox, mən burdayam!

Bala dovşan: : - (əyilib quyuya baxaraq). Eh, heç belə də top olar, sən ki, ayı balasısan. Bala ayı: - Yox, mən topam. Mənim adım topdur.

Bala dovşan: - Yaxşı, bəs sən quyuda neyləyirsən?

Bala ayı: - Mən istədim ki, bu qəşəng gülü daha yaxından görüm?

Elə bu an kənardan dovşanı görən tülkü onu yemək istəyir. Bala dovşan qaçmağa başlayır. Tülkü bala dovşanının dalınca qaçır və yüyürərək ona çatır.

Tülkü: - Dayan, səni yeyəcəyəm! Bəlkə hələ yemədim, çox balacasan. Kələm, kök ye. Yaxşı, bayaq kimlə danışırdın?

Bala dovşan: - Topla.

Tülkü: - Topun dili var ki, danışsın?

Bala dovşan: - Var, dilidə var, ağzı da var.

Mən səni görürəm, səni eşidirəm.

Deməli, başımı itirməmişəm.

Tülkü ayrılıb gedir. Dovşan quyudakı ayını çağırır.

Bala dovşan: - Top, ay top, tülkü qaçıb getdi. Niyə ağlayırsan?

Bala ayı: - Mən elə bildim ki, tülkü səni yeyib.

Bala dovşan: - Görürsən ki, mən sağ-salamatam, başını uca tut. Əsas başdı.

Bala ayı: - Baş?

Bala dovşan: - Bəli, əsas başı itirməməkdir.

Birdən canavar kolların arasından bala dovşana tərəf atıldı. Dovşancığaz qaçsa da, canavar ona çatır.

Canavar: - Salam, bala dovşan. Sən kimdən qaçırsan?

Bala dovşan: - Dostumdan.

Canavar: - Ay-Ay-ay! Dostu atmaq heç yaxşı deyil.

Bala dovşan: - Mən onu heç zaman atmaram.

Canavar: - Əhsən! Məni dostunla tanış elə.

Bala dovşan: - Qurd lələ, sənin kəlləndə bir şey var?

Canavar: - Hə, başa düşdüm. Sənin dostun məni görüb qorxmasın deyə gedim gizlənim.
Bala ayı: - Dovşan, sağsanmı?

Bala dovşan: - Sağam, sağam. Topcığaz, çıx o quyudan! Elə bu vaxt canavarla tülkü gəlir.

Tülkü: - Sən yenə kiminlə danışırsan?

Bala dovşan: - Dostumla.

Canavar: - Sənin dostun gözəgörünməzdir?

Bala dovşan: - Görünür. Yaxşı görünür, quyunun içindədir. Tülkü və canavar quyuya baxaraq ayı balasını gördü və oradan çıxmasını istədilər.

Bala ayı: - İstəmirəm, mən burda çiçəklə söhbət edirəm. Onlar ayı balasına ətrafda da çiçəklər olduğunu dedilər. Hətta ona gül dəstəsindən çələng verəcəyini dedilər. Nə etdilərsə, ayı balasını razı sala bilmədilər. Elə bu vaxt kolluqların arasından meymunun başı görünür.

Meymun: - Ayı balası, quyudan çıxma.

Canavar və tülkü qorxudan qaçır. Ayı balası meymunun səsindən tanıyır. Meymun da ayı balasından orada neynədiyini soruşdusa da, eyni cavabı aldı.

Meymun: - Ananın gözləri yolda qalıb. Elə hey donquldanır ki, mənim balam harada qalıb.

Elə bu vaxt tısbağa görünür. O, bala dovşandan topu tapıb, tapmadığını soruşur. Elə bu an ana dovşan gəlir.

Ana dovşan: - Mənim balam!

Bala dovşan: - Canavar, tülkü! (tez qaçıb meşəyə gedir)

Ana dovşan: - Sən hara gedirsən? Mənim yazıq dovşancığazım, başını itirib anasını da tanımır.

Ayının evi. Ana ayı hanı mənim balam deyərək ağlayırdı. Bu an bala dovşan qaçaraq xəbəri ona çatdırır. Onlar quyuya gəlirlər. Bala dovşan anasını görərək sevinir və onu səsləyir.

Ana dovşan: - Mənim dovşancığazım, sən başını itirmişdin.

Bala dovşan: - Ana, mən bir də başımı itirməyəcəyəm. İndi isə gəl gedək ayı balasını tülkü və canavardan xilas edək. Hər üçü quyuya tərəf gəlirlər. Elə bu vaxt ayı balası görünür. Onun yaxasında çiçək var. Bala ayı evlərində olduğu üçün sevinir.

Ana ayı: - Dovşancığaz mənim balamı xilas elədi.

Hamı qışqıraraq: - Dovşan başını itirmə. Gözlənilmədən tısbağa gəlir və tapdığı topu göyə atır. Tısbağa: - Topu da itirmə! Hamı sevinir. Topun dalınca qaça-qaça meşədən çıxırlar.

Səhnəcikdən sonra kitabxanaçı oxucular arasında sorğu keçirilir.

1. Teatrda gördüyünüz obrazlara həyatda rast gəlirsinizmi?

2. Uşaq teatrının sirkdən fərqi nədir?

3. Teatrda nələrə riayyət edirsiniz?

4.Əgər akryor (aktrisa) olsaydınız hansı əsərin obrazını canlandırmaq istərdiniz?

5. Nağıl personajlarından hansılarını tanıyırsınız?

6. Teatra baxmaq üçün bələdçiyə nəyi təqdim edirsiniz?

7.Uşaqlar teatr tamaşasına baxdıqdan sonra hansı hisləri keçirirsiniz?

8.Yaşadığınız məkana yaxın olan teatrların adını yazın:

9. Heç  səhnəcikdə iştirak etmisiniz?

10. Hansə yazıçının əsərinin tamaşaya qoyulmasını istərdiniz?

Kitabxanada Uşaq teatırını təbliği məqsədi ilə ekskursiyaların təşkili məqsədəuyğundur. Ekskursiyanın müddəti bir neçə gün ola bilər. Bu müddət ərzində

oxucular kitabxana tərəfindən paytaxtımızdakı teatrlara səyahət edirlər. Səyahətin əsas məqsədi oxuculara tariximizi, ədiblərimiz və onların qələmə aldığı əsərləri, keçmişimizi, milli dəyərlərimizi, incəsənət və mədəniyyətimizi və eləcə də adı qeyd olunan teatrı tanıtmaqdır.



İncəsənətin muxtəlif nov janrları, muxtəlif nəsildən olan insanların, o cumlədən uşaqların və yeniyetmələrin bədiilik inkişafında muhum rol oynamışdır. Əgər görkəmli rəssamların, bəstəkarların və digər sənət adamlarının kecdiyi həyat yoluna nəzər salsaq gorərik ki, onlar sənət aləmində ilk uğurlu addımlarını məhz məktəbəqədər dovrdə atmış, boyuk sənətə gedən yolun cığırına duşmuşlər. Uc- beş yaşlarında cəkdikləri rəsmlərlə, qurduqları ev-eşikləri, bəstələdikləri musiqi numunələri ilə boyuk sənətkarların rəğbətini qazanan istedadlı uşaqlar heyrət və heyranlıqla qarşılanmışlar. “Hər bir uşaq kəşf olunmamış dunyadır” deyənlər də haqlıdırlar. Doğrudan da muxtəlif yaş dovrlərini kecən uşaqların ətraf aləmə tələb və cəmiyyət hadisələrinə, ətrafda olan əşya və obyektlərə, insanların peşələrinə, ozlərini necə aparmaqlarına xususi maraq gostərmələri, onların incəsənət sahəsindəki movzu, janr seciminə də musbət təsir gostərir. Apardığımız muşahidələr gostərir ki, məktəbəqədər dovrdə uşaqların əli qələm tutduqları vaxtda, habelə ibtidai siniflərdə kicikyaşlı məktəblilər ətraf aləmdə gordukləri əşya və obyektlərin şəklini cəkməyə-rəsm işləməyə, onların formasını qurmağa daha cox meyl edirlər

**Simvolik oyun** (1,5-1,8 yaş)

Bu oyun uşağın obyektə yeni funksiyalar verə biləcəyi zaman başlayır: çörək dilimi taca, çubuq gəlinciyə, stul isə maşına çevrilir. Burada təxəyyül, təfəkkür və yumor hissi formalaşır. Sizin qarşınıza sosislərdən hazırlanmış qatar çıxanda, ona çəngəldən parovoz hazırlayın.

**Rollu oyun** (2-3 yaş)

Burada artıq əşya deyil, uşaq özü obrazları öz üzərində ölçür: sosial rolları məşq edir, pişik yaxud da dinozavra çevrilir. Uşagın seçdiyi rola görə onun güclü və zəif yerini aşkar etmək olar. Rollu oyun yeni situasiyaların qavranılması üçün yaxşı üsuldur: əgər ailə səyahətə hazırlaşırsa, bundan öncə bir neçə dəfə səyahət oyunu oynamaq lazımdır. Bu halda informasiya uşaq tərəfindən mənimsəniləcək və o, adi həyatda bu

informasiyadan istifadə edəcək. Rollu oyun bütün həyat boyu bizimlə olacaq, əgər biz onu uşaqlıqda yaxşı oynayırıqsa, yetkin yaşlarda müxtəlif həyati situasiyaları yaxşı anlayacağıq.

**Süjetli rol oyunu** (3-4 yaş)

Bu mərhələdə oyunçunun sadəcə rolu yoxdur, hər zaman onunla nəsə baş verir: o yalnız qılınc oynadan dəniz quldurу deyil, gəmiyə əyləşib dənizdə üzən, orada akulaların hücumuna məruz qalan dəniz quldurudur. Süjetli rol oyununda güclü emosiyalar olur. Müasir uşaqlar süjetli rol oyununu adətən çox pis oynayırlar, ona görə ki, 3-4 yaşlarından biz onları öyrətməyə başlayırıq, məşğələ cədvəli hazırlayır, hərfləri və rəqəmləri göstəririk.

Rejissor oyunu (4-5)

Bu, daha çox məharət tələb edir. Bu cür oyun uzun müddət (aylarla) davam edər, çoxsüjetli olub müxtəlif formalar ala bilər. Hər gün cürbəcür əhvalatlar uydurmaq, dostlarla birgə yay boyunca ağacda evciyi olan Robin Qudu oynamaq, səyyar sirk haqqında silsilə komikslər hazırlamaq - bütün bunlar rejissor oyunları adlanır. Belə bir oyunu hazırlayıb davam etdirə bilən uşağın nəinki təfəkkürü və nitqi inkişaf edir, o həm də öz yaşıdları arasında liderlik qazanır.



**Əli Səmədli. İki kitab**

Məktəb kitabxanasında çoxlu kitablar var idi. Bunların ancaq birindən sizə söz açacağam. Bu, “Azərbaycan nağılları” kitabı idi. Bu kitabdan iki dənə idi. Eyni ildə buraxılmasına baxmayaraq, biri təptəzə qalmışdı. O birinin isə əzilib sökülmüş vərəqləri cildin arasında zorla dayanırdı. Bu kitab təzə kitabın yanında dayanmağa belə utanırdı. Heç bunu təzə kitab da istəmirdi. Ona rişxəndlə baxıb tez-tez deyirdi:

Bir bunun qopub tökülmüş, cırılmış vərəqlərinə bax. Elə bil yüz ilin kitabıdır. Heç yüz ilin kitabı da belə cındır olmur, ələl gəzir. Kim səni bu günə salıb? Əzik kitab inildəyə-inildəyə: – Məni on iki uşaq aparıb oxuyub, on iki.

Təzə kitab: – Eh, çox da lovğalanma, – dedi. Məni otuz beş şagird aparıb oxuyub.

Əzik kitab yenə yazıq-yazıq dedi: - Eh, görünür, sən beşincilərin əlinə düşməmisən. Həmin sinifdə Kamillə Samirin əlinə düşsəydin, məndən də pis günə qalardın. Onların

hərəsinin evində mən bir ay qalmışam. Məni hey ordan bura atırdılar, burdan da ora. Ona görə bu günə qalmışam.

Təzə kitab: - Görünür, beşincilərin kitabsevərlər dərnəyi yoxdur. Əgər olsaydı, onlar bilərdilər ki, biz kitablar dünyanın ən böyük sərvətiyik. Eyib etməz. Bax sən keç lap birinci cərgədə dur. Uşaqlar bu gün gəlib kitabxanadakı cırılmış kitabları təmir edəcəklər. Qoy səni də görüb, götürsünlər. Doğrudan da, səhəri gün məktəbin kitabsevərləri kitabxananın cırılmış kitablarını təmir etməyə başladılar. Əzilib vərəqləri tökülmüş "Azərbaycan nağılları" kitabı da onların arasındaydı. Qızlardan biri onu əlinə götürən kimi dedi: - Bu ki keçən il buraxılan kitabdır. Bunu bu vəziyyətə, görəsən, kim salıb? Söhbətə kitabxanaçı Solmaz müəllimə gəlib çıxdı. Kitaba baxan kimi dedi: Bu ancaq beşincilərin işidir. Onlardan bir nəfər də kitabsevərlər dərnəyinin üzvü deyildir. Bir həftədən sonra kitab təmir edənlər arasında beşincilər də vardı. Sonda uşaqlar nağıl otağında Azərbaycan cizgi filmlərinə tamaşa edirlər.

https://azerbaijan.az/multifilms

https://www.youtube.com/watch?v=ApSF0_w8R6M

https://www.youtube.com/watch?v=KCpiJXU-P84
https://www.youtube.com/watch?v=yGtW8lVAqT4ANİMC
https://www.youtube.com/watch?v=HnA2hC2NEhg

Kuklalar səhnədə görünəndə həmişə bayram olur. Kukla tamaşaları uşaqlara xeyirxahlığı, yaxşıları dəyərləndirməyi və sevməyi öyrədir. Əgər kuklalar balacalar üçün bir oyun, əyləncədirsə, böyüklər üçün bir eyham, bir mesajdır. Çünki oyuncaqlar, bir tərəfdən körpə üçün əyləncəli anlar yaradar, digər tərəfdən də olduqca təsirli və tərbiyəvi vəzifəni boynuna götürür. Uşaqların romantik, ruhi, əqli və fiziki inkişafı baxımından ən təbii və ən aktiv öyrənmə zamanı oyuncaqlarla təmas əsnasında yaranır.

Bu gün oyuncaq istehsalı olduqca inkişaf edib, hər gün yeni bir oyuncaq dizayn edilərək bazara çıxarılır. Qız uşaqları daha çox gəlincik və ya miniatür ev əşyalarına üstünlük verir, oğlanlar isə daha çox konstrukturlar, silah, mexaniki, elektronik oyuncaqlarla maraqlanır. Dünya uşaq ədəbiyyatı uzun əsrlər boyu oyuncaq (ələlxüsus da, kukla) qəhrəman yaradılmasında maraqlı olub. Bu mövzuda dəyərli yazılar yazılması, uşaq aləmini dərk etmək üçün yazıçılardan fitri istedad, şifahi xalq yaradıcılığının janrlarını, canlı xalq danışıq dilini, onun ifadə imkanlarını bilməklə yanaşı, həm də uşaq aləmini, onun iç dünyasını duymağı, əsaslı öyrənmək tələb edilirdi. Çünki uşaqların maraq dairəsini, estetik zövqünü öyrənmədən onları konkret məqsədə

doğru yönəltmək, fərdi meyillərini inkişaf etdirmək də olmazdı. Odur ki, uşaqlar üçün yazılan nağıllar, əsərlər onların yaş səviyyəsinə münasib olan üslubda qələmə alındı. Xalqımız ta qədimdən təbii vasitələrdən istifadə olunmaqla kuklalar düzəltmiş, tamaşalar hazırlamış, xalq oyunları təşkil etmişdir.

**Konfrans:** Kitabxanalarda məktəblilərin iştirakı ilə "Uşaqların inkişafında teatr tamaşalarının rolu" adlı oxucu konfransı da təşkil etmək mümkündür. Konfransdan öncə onun proqramı tərtib olunmalı, konfransın keçiriləcəyi dəqiq vaxt müəyyən olunmalıdır. Proqramda konfransda çıxış edəcək qonaqların; rejissorların, psixoloqların, uşaq ədəbiyyatı sahəsində çalışan mütəxəssislərin, bağça və məktəb müəllimlərinin, metodistlərin və şagirdlərin adları, onların çıxış edəcəkləri mövzular, tədbirin keçiriləcəyi məkan və zaman qeyd olunur. Oxucu konfransının planını sizə təqdim edirik:

1. Giriş hissə (Uşaq teatrlarının yaranma tarixi ilə bağlı məruzə)

2. Son vaxtlar hazırlanan uşaq tamaşaları haqqında məlumat

3.Uşaqları tamaşalarda ən çox cəlb edən mövzular

4. Ən çox sevilən uşaq tamaşası qəhrəmanı

5. Nağıllarımız əsasında tamaşaya qoyulan teatrların üstünlüyü

4. Konfransın yekunu.



Metodist: Ölkəmizdə bəzi televiziya kanalları uşaqlar evdə darıxmasın deyə sevilən tamaşalarla onların görüşünə gəlirlər. Uşaqların həyatında və psixoloji inkişafında uşaq teatrlarının böyük rolu olduğu danılmaz faktdır. Ona görə də tamaşaların psixo-pedaqoji mahiyyətini bilmək vacibdir. Psixoloqların fikrincə, düzgün seçilən uşaq teatrları uşaqların inkişafına müsbət təsir edir. Valideynlər uşaqların izləməsi üçün cizgi filmi seçərkən ehtiyatlı olmalı, bəzi vacib məqamlara diqqət yetirməlidir. Əslində hər bir uşaq teatrının konkret süjeti olmalıdır. Uşaq teatrları uşağın psixologiyasına mənfi təsir göstərməməli, onu sakitləşdirməli və maarifləndirməlidir, mənasız dinamik hərəkətlər əvəzinə öyrədici və tərbiyəedici süjetlər olmalıdır. Əlbəttə ki, uşaqların bilik və dünyagörüşünün artırılmasına xidmət edən kifayət qədər uşaq tamaşaları var. Ata-analar faydalı uşaq

teatrlarını seçərək övladlarının onlara tamaşa etməsinə  çalışmalıdır. Uşaq tamaşaları aqressiya və zorakılığı deyil, mehribanlıq, humanistlik və səmimiyyət təbliğ etməlidir. Körpələrin uşaq tamaşalarını izləmək müddətinin onların yaşına uyğun olması barədə psixoloqların mövqeləri var. Uşaqların film izləmə müddəti yaşa görə müxtəlifdir və valideynlər bunu mütləq nəzərə almalıdır.

3 yaşa qədər uşaqlar televiziyada nümayiş olunan uşaq tamaşalarına çox az baxa bilər – cəmi 20-30 dəqiqə olmaqla gündə iki və ya üç dəfə. Həmin yaş dövründə uşaq televizora hər dəfə 10 dəqiqədən çox baxmamalıdır.

4 yaşında uşaqların televiziya ekranını izləmə müddəti 30-40 dəqiqə olmalı, gündə üç və ya dörd dəfə və hər dəfə 10 dəqiqəni ötməməlidir.

5 yaşı olan uşaqlar 1 saat televizora baxa bilər. Onlar hər dəfə 20 dəqiqə olmaqla gün ərzində üç dəfə ekran qarşısında əyləşə bilər.

6 yaşında uşaq 1 saat – 1 saat 30 dəqiqə ərzində televiziya ekranında nümayiş olunan cizgi filminə tamaşa edə bilər, lakin gündə iki və ya üç dəfə 30 dəqiqədən artıq olmamaq şərti ilə uşaq tamaşalarına baxa bilər. Sonrakı illərdə uşaqlar tədricən 2 saata qədər “mavi güzgünü” izləyə bilərlər. Yaxşı olar ki, uşaq televizora baxarkən valideynlərdən biri onunla bərabər verilişə baxıb nəyin baş verdiyini ona başa salsın. Oxucularla görüş: Azərbaycanda uşaq teatrı

Uşaq oyunu, uşaq teatrı körpələrin inkişaf üçün böyük əhəmiyyət kəsb edir. Uşaq nə qədər çox oynayarsa, dərketmə, yetkinləşmə, həyata pozitiv münasibət bir o qədər yüksək olar. Oyunlar bizi hər yerdə əhatə edir: tamaşalar, biznes davranışları, futbol matçları, elmi araşdırmalar da oyundur. Uşaqlar, böyüklər və hətta heyvanlar da oynayırlar. Top arxasınca qaçan itlər, suda tullanan delfinlər – bütün bunlar oyun davranışını nümayiş etdirir. XIX əsrdə hesab edilirdi ki, oyun insanı başqa varlıqlardan fərqləndirir. Alimlərin gəldiyi nəticə ondan ibarətdir ki, oyun davranışı həyati zərurətdir; o, istənilən şəraitə uygunlaşmağa kömək edir.Hər zaman maarifləndirmə funksiyasını həyata keçirən teatr məktəblilər üçün Mirzə Ələkbər Sabirin satiralarına, Cəlil Məmmədquluzadənin hekayələrinə müraciət etməsi məqsədəuyğundur. Teatrın repertuarında daha çox alleqorik janra üstünlük verilərsə, repertuarda olan tamaşaların əksəriyyəti yenilənər.Kitabxanada “Uşaqlar və teatr” adlı əyləncəli onlayn müsabiqənin də təşkil olunması məqsədəuyğundur. Yarışmada kitabxananın aktiv azyaşlı oxucuları iştirak edirlər. Əyləncəli müsabiqə 5 mərhələdən ibarət olur:

1) Tamaşalardan suallar;

2) Tap görüm;

3) Atalar sözü;

4) Teleqramma;

5) Sehrli zənbil müsabiqələri.

Hər düzgün cavab bir kəpənək ilə qiymətləndirilir. Sonda ən çox kəpənək yığmış oxucu müsabiqənin qalibi olur. Müsabiqənin sonunda kitabxananın müdiriyyəti qalib uşaqları



təbrik edib və bu müsabiqədə iştirak etdikləri, suallara cəld cavab verdikləri üçün onlara təşəkkürünü bildirir. Bu mövzuda oyunların keçirilməsi mütaliənin və kitabın uşaqların dünya görüşünün formalaşmasında böyük rol oynayır. Məhz kitablar uşaqlar üçün yeni dünyanın qapılarını açır, estetik tərbiyyəni, mənəvi və intellektual səviyyənin yüksəlməsini təmin edir. Belə tədbirlərdə uşaqların fəal iştirakı və onlara verilən suallara düzgün cavab vermələri onların kitabxanadan daim istifadə etməklərində, ədəbiyyatların düzgün seçilməsində və seçilən ədəbiyyatların mənimsənilməsində öz əksini tapdığının göstəricisidir. Müsabiqənin sonunda müsabiqənin qalibi "Teatrımızın bilicisi medalı" ilə təltif edilir. İştirak edən bütün uşaqlara isə fəal oxucu diplomları təqdim olunur. Uşaqlar dünyaya nağıllardan boylanar, nağıldan nağıla buğda boyda böyüyərlər. Onlar üçün nağıl aləmində heç bir şərtilik, heç bir uydurma, heç bir yalan-filan yoxdur: hər şey həqiqətdir, realdır; dəniz kimi realdır, dənizdə üzən gəmilər kimi realdır, torpaq kimi, torpaqda bitən ağaclar kimi realdır.



Nağıllarda gerçəkliklə fantastika, fantastika ilə gerçəklik arasında cəmi iynəyarım yol var. Nağıllar xalqın uşaqlığıdır. Hər bir xalq öz nağıllarında güzgülənib özünü tanıyır. Nağıl xalqın mədəniyyətə vəsiqəsidir. Bu vəsiqəni hər bir insan hələ uşaq ikən öz anasından alır. Bir xalqı özün üçün "kəşf etmək" istəyirsənsə, onun adətlərini görmək, dilini öyrənmək istəyirsənsə, həmin xalqın nağıllarını oxu. Bizim Azərbaycan nağılları əsasında çəkilən uşaq teatrları həm uşaqlar,

həm böyüklər tərəfindən sevilərək izlənilir. Uşaq aləmini dərk etmək teatr tamaşasını çəkən rejissordan fitri istedad, şifahi xalq yaradıcılığının janrlarını, canlı xalq danışıq dilini, onun ifadə imkanlarını bilməklə yanaşı, həm də uşaq aləmini, onun iç dünyasını duymağı, əsaslı öyrənməyi tələb edir. Uşaqların maraq dairəsini, estetik zövqünü öyrənmədən onları konkret məqsədə doğru yönəltmək, fərdi meyllərini inkişaf etdirmək də olmaz. Odur ki, uşaqlar üçün çəkilən uşaq tamaşaları onların yaş səviyyəsinə münasib olan üslubda çəkilməlidir.Bu münasibətlə respublikanın bütün mədəniyyət müəssisələrində, eyni zamanda kitabxanalarda "Uşaq tamaşaları həftəsi" adı altında tədbirlərinin keçirilməsi nəzərdə tutulmuşdur. Kitabxanada "Uşaq teatrında sehirli dünya" adlı sərgi təşkil etmək olar. Tədbirdə milli, sovet və Disney cizgi filmlərinin qəhrəmanlarının şəkilləri, disklər, cizgi filmləri haqqında kitab və broşuralar nümayiş olunur. Daha sonra uşaq tamaşalarının nümayişini keçirmək məqsədəuyğundur. Bu təbdbir bir həftə davam edə bilər. Öncə kitabxanaçı uşaq teatrının yaranma və inkişaf tarixi haqqında qısaca məlumat verir. Məsələn: "Uşaqların sevimli məkanı- Uşaq teatrı"

I kitab Könlüm Qarabağdadır Yazıçı : Teymur Elçin "Könlüm Qarabağdadır" kitabında Azərbaycan uşaq ədəbiyyatının istedadlı nümayəndələrindən olan Teymur Elçinin uşaqların müxtəlif yaş dövrləri üçün nəzərdə tutulmuş əsərləri toplanmışdır. Uşaq şeirləri,uşaq tamaşaları, cizgi filmi üçün yazılmış ssenari, nəğmələr, tapmacalar, yanıltmaclar və başqa bu kimi janrları əhatə edən örnəklər kitabda konkret başlıqlar altında sistemləşdirilmiş, folklordan müxtəlif istiqamətlərdə istifadə olunmuşdur.

Uşaq tamaşaları, əsasən, Bakının üç teatrında - Abdulla Şaiq adına Kukla Teatrı, Gənc Tamaşaçılar Teatrı (GTT) və bir neçə tamaşa Səməd Vurğun adına Rus Dram Teatrında gedir. Teatrın rolu, xüsusilə onların teatrı uşaqlar və kiçik nəsildə mədəni zövqünün tərbiyə olunması məsələsində olduqca mühümdür. "Uşaqlar tamaşa karyerasına Kukla Teatrından başlayırlarsa, onlara artıq mükəmməl şəkildə zövq və teatra istiqamət aşılanır. Uşaq teatrı təkcə kiçikyaşlı tamaşaçıları deyil, yuxarı sinif şagirdlərini , tələbələri də öz auiditoriyasında görməyə şad olur.Uşaq tamaşalarının özləri, eləcə də onların seçilməsi əsaslı surətdə baş verir: mütləq balans qorunur - tamaşaların yarısı yerli dramaturqların, yarısı isə əcnəbilərin olur. Həm də istər klassik əsərlər, istərsə də yeni müəlliflərin tamaşaları qoyulur. İndi isə gəlin nağıl otağında

***Hans Christian Andersenin “Çirkin ördək balası”nağılının tamaşasına baxaq.***

**İştirakçı**: İsti yay günləri olduğundan çöllərdə yulaf yaşıllaşmış, otlar biçilib, yığılıb taya vurulmuşdu. Çəmənliklərdən o yana meşələr uzanırdı. Meşələrdə olduğu kimi, qalın ayaq pəncəsi olan yerlərdə sakit və qorxunc görünürdü. Uzun müddətdən bəri burada bir ördək yumurta üstündə oturmuşdu, çox oturmaqdan lap təngə gəlmişdi.



Nəhayət ki, yumurtaların qabığı çatladı, ətcəbalalar yumurtadan çıxıb “cikkildəşməyə” başladılar. Lakin ana ördəyin çoxdandır gözlədiyi böyük yumurta hələdə çatlamamışdı. O, yumurtanın üstündə oturmağa davam edirdi. Bu vaxt ana ördəyə baş çəkməyə gələn qoca Ördək soruşdu:

**Qoca ördək** : Hə, işlər necədir?

**Ana ördək**: Bax budur, bir yumurta qalıb çatlamır ki, çatlamır. Gözləməkdən yoruldum.

**Qoca ördək** : O çatlamayan yumurtanı mənə göstər görüm. İnan ki, bu hind toyuğunun yumurtasıdır! Bir dəfə mənim də başıma bu cür iş gətirmişdilər; hind toyuğunun balalarının zəhmətini çox çəkdim, amma birini də suya öyrədə bilmədim, suya girmədilər ki, girmədilər! Get öz balalarına üzmək öyrət, bundan əl çək.

**Aparıcı** : Lakin ana ördək ondan əl çəkmir. Nəhayət ki, yumurta çatlayır və içindən böyük çirkin ördək balası çıxır. Ana ördək Qoca ördəyin dediyini xatırlayır.

**Ana ördək :** Nə böyükdür! Görəsən, doğurdanda Hind toyuğunun balasıdır?! – deyə öz-özünə gileylənir.

**Aparıcı :** Ertəsi gün ana ördək öz balaları ilə arxa yollanır. Bala ördəklər şappıltı ilə suya tullanırlar. Çirkin ördək balası üzməkdə digərlərindən heç də geri qalmır.

**Ana ördək** : Bu hardan hind toyuğunun balası oldu?! Gör avar kimi suyu necə də düz ötürür. Yox, bu mənim öz oğlumdur ki var! Hə cəld olun gəlin indi sizi cəmiyyət içinə aparacağam.

**Aparıcı**: Az sonra ana ördək və balaları quşlar olan həyətə çatdılar. Ana ördək bala ördəklərə qaqqıldamağı, pəncələrini tərpətməyi öyrətdi. Balalar elə anaları öyrətdiyi kimi etdilər. Başqa ördəklər nəzərləri ilə onları süzərək ucadan səsləndilər.

**Başqa ördəklər** : Budur ha, bir dəstə də gəldi! Hələ bir o boz balaya bax! Gör nə eybəcərdir.

**İştirakçı:** Elə həmin dəqiqə bir ördək qanad çala-çala yaxınlaşıb onun qoynuna bir dimdik ilişdirdi.

**Ana ördək:** Ey ona dəyməyin! O ki sizə bir şey eləmədi.
**Ördək:** (acıqlandı) Tutaq ki, sən deyəndir, ancaq o, elə  çirkindir ki, tutub onu yaxşıca kötəkləmək lazımdır.
**Ana ördək**: Düzdür, o gözəl deyil, ancaq ürəyi təmizdir. Düşünürəm ki, böyüyər gözəlləşər.
**Aparıcı**: Çirkin ördəyi təkcə ördəklər deyil, hətta toyuqlarda dimdikləyirdilər.
**Çirkin ördək**: Kaş belə çirkin doğulmayaydım, quşlar mənə gülməyəydilər!
**Aparıcı**: Çirkin ördək bezərək vəhşi ördəklərin yaşadığı bataqlığa qədər qaçdı. Ördəkcik həmin bataqlıqda iki gün qaldı. Üçüncü gün ora iki vəhşi erkək qaz uçub gəldi. Vəhşi qazlar öyünür və söylənirdilər.
**Vəhşi qazlar:** Sən yaman kifirsən ancaq bizim xoşumuza gəlirsən. De görək bizimlə gedib azad quş olmaq istərdinmi? Yaxınlıqda sevimli vəhşi qız qazlar var. Bəlkə, sən onların xoşuna gəldin.
**Aparıcı:** Çirkin ördək vəhşi erkək qazın sözü ilə razılaşaraq onlarla gedir. Soyuq şaxtalı qış girmişdi. Çirkin ördək buzun üstünə yıxılıb, donub buza yapışır. Bu sərt qış günlərində ördəkciyin başına gələn bütün fəlakətləri söyləmək çox acınacaqlı olardı. Aylar keçir. Hava qızınır. Günəş isti şüaları ilə yeri qızdırmağa başlayır. Ördəkcik qanadlarını çalıb başqa diyarlara uçur.
**Aparıcı:** Yaz gəldi. Ördəkcik qanad çalıb uçdu, onun qanadları əvvəlkindən çox-çox möhkəm idi. Ördəkcik bir bağa qondu. Bağ onun çox xoşuna gəldi. Birdən o üç gözəl ağ qu quşu gördü.
**Çirkin ördək:** Mən o gözəl iri quşların yanında qalacağam. Onlar yəqin məni kifir olduğum üçün dimdikləyəcəklər. Eybi yox. Onların zərbəsindən ölmək, qışın soyuğuna, aclığına dözməkdən yaxşıdır.
**İştirakçı:** Qu quşları ördəkciyi görcək qanadlarını açıb ona tərəf üzdülər.
**Çirkin ördək:** Öldürün, dimdikləyin məni.
**Aparıcı:** Ördəkcik başını aşağı salanda suda öz əksini gördü. Artıq o, boz rəngli çirkin ördəkcik deyil, ağ qu quşu olmuşdu!
Qu quşu yumurtasından çıxan bir quşa ördək yuvasında dünyaya gəlmək heç də eyib deyil. İndi o çox şad idi. Böyük qu quşları onun ətrafında üzür, dimdikləri ilə onu tumarlayırdılar.



Əlbəttə, sual yarana bilər ki, uşaqları dramatik planda daha çətin əsərlərlə yükləməyə dəyərmi? Lakin burada da yanaşma düşünülmüş olmalıdır. Bu halda teatr balaca tamaşaçıların auditoriyalarının maraqlarını öyrənərək, bu və ya digər tamaşanın dəqiq kimə ünvanladığını bilməlidir? Hansı yaşda olan auditoriyaya? Üç və doqquz yaşda olan uşaqla nağıl hərəkətlərinin eyni dilində danışmaq olarmı? Tamaşaçımızın inkişaf səviyyəsini öyrənərək, biz dəqiq anlayırıq ki, "Nağılı tap" tamaşası, məsələn, müxtəlif yaşda olan uşaqlara maraqlıdır. Çünki interaktiv fəaliyyətə hər şey daxildir: balacalar da, böyüklər də.Teatrlara gəldikdə gənc tamaşaçının fikrini nəzərə almalı, onun psixologiyasından xəbərdar olmalı, onu sevməli və onun dilində danışmaq lazımdır.

Uşaqlar üçün yazılmış əsərlər əsasında çəkilmiş uşaq teatrlarına-tamaşalara baxdıqda, məzmun və formasına (yığcamlıq, lakoniklik, fikir aydınlığı, cümlələrin kompaktlığı, sintatik quruluşu, ana dilinin imkanlarından yetərincə yararlanma və s.) nəzər saldıqda bu sahədə əməyi olan mütəxəssislərin uşaqların psixologiyasını, onların yaşına uyğun davranışını bu sahənin mütəxəssisi kimi bildiyi qənaətinə gəlirik. Bu nağıllar əsasında çəkilən cizgi filmlərində uşaqların yaşadığı ictimai mühit, onların inkişafı, idrakı, zövqü, nitq qabiliyyəti, mədəni davranış qaydalarına yiyələnməsi, bilik və maraq dairəsi də diqqət mərkəzində olmalıdır.

Azərbaycan teatr sənətinin sürətli inkişafı respublikamızda dünya standartlarına cavab verən müstəqil sənət ocaqlarının yaranmasına gətirib çıxardı. Bu gün respublikamızda Akademik Milli Dram və Opera və Balet teatrları ilə yanaşı, Musiqili Komediya Teatrı, Rus Dram Teatrı, Gənc Tamaşaçılar Teatrı, Kukla Teatrı, Marionet Teatrı, Pantomima Teatrı, “Yuğ” Teatrı, Bakı Bələdiyyə Teatrı və başqa teatrlar fəaliyyət göstərirlər. İrəvan, Naxçıvan, Gəncə, Sumqayıt, Lənkəran, Şəki, Salyan, Mingəçevir, Qazax, Qax, Qusar, Ağdam, Şuşa, Füzuli və digər şəhər və rayonlarda fəaliyyət göstərən teatrlar da öz tamaşaları ilə sənətrsevərlərin dərin rəğbətini qazanmışlar.

## Ədəbiyyat siyahısı

### Kitablarda

Azərbaycan teatr antologiyası : 2 cilddə. C. 1. - Bakı : E.L., 2013. - 599 s.

**Babayev, E**. Teatrda müasirlik axtarışları: Adil Babayevin dramaturgiyası: monoqrafiya. - Bakı : Mütərcim, 2013. - 187 s.

**Cəfərov, C**. Axundov və teatr = М.Ф.Ахундов и театр. - Təkrar nəşr, Bərpanəşr, 1962-ci il nəşr əsasında. - Bakı : Renessans, 2016. - 130 s.

**Ələsgərli, Ç**. Xəzana dönmüş ömür və ya kuklaçılığın nağılı. - Bakı : Şərq-Qərb, 2016. - 160 s.

**İvanov, V.T**. Zəfər və ilğım : Taqanka Teatrı haqqında qeydlər. - Bakı : Azərbaycan Tərcümə Mərkəzi, 2016. - 376 s.

**Kərimov, İ**. Əbdürrəhimbəy Haqverdiyev və teatr. - Təkrar nəşr, Bərpanəşr, 1975-ci il nəşr əsasında. - Bakı : Renessans, 2016. - 206 s.

**Kərimova, E**. Naxçıvan Dövlət Uşaq Teatrı : 2006-2022-ci illər. - Naxçıvan : Əcəmi, 2022. - 232 s.

**Özhan, M**. Kukla ve gölge tiyatrosu. - Bursa : Bursa büyükşehır beledıyesi, 2010. - 104 s.

**Rəhimli, İ.** Azərbaycan Dövlət Akademik Milli Dram Teatrı : Teatrın 1873-2012-ci illər arasındakı yaradıcılıq yolunun salnaməsi : 3 cilddə. C. 1. : (1873-1936). - Bakı : Təhsil, 2013. - 576 s.

**Rəhimli, İ.** Azərbaycan teatr tarixi : 5 cilddə. C. 1. - Bakı : Şərq-Qərb, 2017. - 496 s.

**Rəhimli, İ.** Azərbaycan teatr tarixi : 5 cilddə. C. 2. - Bakı : Şərq-Qərb, 2017. - 536 s.

**Rəhimli, İ.** Azərbaycan teatr tarixi : 5 cilddə. C. 3. - Bakı : Şərq-Qərb, 2017. - 608 s.

**Rəhimli, İ.** Azərbaycan teatr tarixi : 5 cilddə. C. 4. - Bakı : Şərq-Qərb, 2017. - 480 s.

Yeniləşən mədəniyyət, yeniləşən məkanlar. I kitab : Azərbaycan Dövlət Kukla Teatrı. - Bakı : Təhsil, 2010. - 168 s.

### Dövri mətbuatda

**Ağazadə, İ**. Kukla Teatrının səhnəsində "Zəfər zəngi" səsləndi // Ədəbiyyat qəzeti. - 2022. - 3 dekabr. - № 47. - S. 25.

Azərbaycan peşəkar milli **teatr**ının 150 illik yubileyinin qeyd edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı (3 fevral 2023) // Ədəbiyyat qəzeti. - 2023. - 4 fevral. - № 5. - S. 2.

Azərbaycan Respublikasında "Milli **Teatr** Günü" nün təsis edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı (1 mart, 2013) // Azərbaycan. - 2013. - 2 mart. - № 48. - S. 1. ; Ədəbiyyat qəzeti. - 2013. - 8 mart. - № 9. - S. 1.

**Behbudqızı, S**. Kukla teatrı - 90 // Mədəniyyət : jurnal. - 2021. - № Sentyabr/Oktyabr(339). - S. 46-48.
**Bədəlov, N**. "Qəm yeməyin sizlərləyəm..." : aktyor Ələkbər Hüseynov haqqında // El. - 2009. - №1. - S. 28-35.
**Ceyhun.** Paytaxtda Folklor Teatrı yaradıldı // Mədəniyyət. - 2013. - 6 fevral. - № 9. - S. 5.
Heydər Əliyev Mərkəzində "**Kukla** incəsənətdə" sərgi açılıb : Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla Əliyeva sərgi ilə tanış olub // Azərbaycan : qəzet. - 2016. - 28 dekabr. - № 289. - S. 8.
**Həsənli, A**. Kuklaçı atam... : xatirəyə bənzər duyğularım : Ruslan Həsənli - 70 // Qobustan. - 2015. - № 4. - S. 55-56.
**Həşimova, S**. Kukla // Kaspi. - 2020. - 4 iyun. - № 84. - S. 10.
**Xəlilzadə, F**. Keşməkeşli tale, şərəfli tarix : Azərbaycan teatrı 140 // Azərbaycan. - 2013. - 17 mart. - № 60. - S. 6.
**Qasımov, C**. Kuklalar // Kaspi. - 2020. - 18 iyun. - № 92. - S. 11.
**Mirməmməd, G**. Bitən ilin son yubileyi : Abdulla Şaiq adına Azərbaycan Dövlət Kukla Teatrı - 85 // Mədəniyyət. - 2016. - 30 dekabr. - № 100. - S. 7.
**Mirməmməd, G**. Böyümək istəməyən oğlan Kukla teatrındadır // Mədəniyyət. - 2018. - 5 dekabr. - № 88. - S. 7.
**Mirməmməd, G.** Ömrün qəhrəmanınkı qədər uzun olsun! // Mədəniyyət. - 2017. - 26 may. - № 40. - S. 7.
**Mirməmməd, G.** Sevimli nağıl yeni tərzdə, fərqli yozumda : Yaşından asılı olmayaraq, hər bir debüt həyacan gətirir A.Şaiq adına Azərbaycan Dövlət Kukla Teatrının "Şəngülüm,Məngülüm" tamaşasında da bu həyacan az deyildi // Mədəniyyət. - 2018. - 6 aprel. - № 27. - S. 6.
**Nizamiqızı, H**. 85 yaşlı uşaq aləmi, yaxud dünyanı çəhrayı göstərən səhnə : bu mənada 85 yaşlı qocaman sənət ocağı - Abdulla Şaiq adına Azərbaycan Dövlət Kukla Teatrı haqqında // Mədəniyyət.az. - 2016. - № 5. - S. 50-53.
**Nizamiqızı, H**. Bir kuklaçı ömründən xatirələr : aktyor Ruslan Həsənli haqqında // Mədəniyyət. - 2015. - 23 oktyabr. - № 82. - S. 11.
**Nizamiqızı, H**. Teatra maraq uşaq yaşlarından formalaşmalıdır : Rəşad Əhmədzadə: "Kukla teatrında tamaşa hazırlamaq bəlkə də bütün teatrlardan çətindir" // Mədəniyyət. - 2012. - 2 mart . - № 15. - S. 7.
**Pirimova, N**. Teatrlarımızın son 5 ili // Kaspi. - 2019. - 16 may. - № 88. - S. 11.
**Rəhimli, E**. Əlləri sehirli sənətkar // Kaspi. - 2017. - 22 iyun. - № 110. - S. 12.

**Rəhimli, İ**. Cansız kuklalarla canlı ünsiyyət : Dram aktyoru Yaşar Nuriyevin Dövlət Kukla teatrında oynadığı Məşədi İbad rolu barədə // Mədəniyyət. - 2010. - 29 oktyabr. - № 76. - S. 11.

**Rəhimli, İ**. Teatr tariximizdən səhifələr // Ədəbiyyat qəzeti. - 2013. - 8 mart. - № 9. - S. 2, 8.

**Rəis, X**. Azərbaycan Dövlət Kukla Teatrı - 85 // Kaspi. - 2016. - 29 dekabr. - № 217. - S. 11.

**Rəis, X**. Kuklaların teatrı // Kaspi. - 2012. - 19 sentyabr. - № 386. - S. 15.

**Rəis, X**. Məngülümsüz də tamaşa olar? : Kukla Teatrının səhnəsində mono tamaşa hazırlanır // Kaspi. - 2017. - 26 oktyabr. - № 179. - S. 11.

**Rəis, X**. Uşaqlarla öz dillərində danışmaq lazımdır : Kukla Teatrının aktyoru Rəhim Rəhimov: Təsəvvürümə gətirə bilməzdim ki, "Ən yaxşı aktyor" nominasiyanın qalibi olaram // Kaspi. - 2017. - 13 iyun. - № 104. - S. 12.

**Röya, X**. Bu sənət əynimə biçilib : kuklaçı Fərəh Əliyeva haqqında // Kaspi. - 2019. - 12 mart. - № 47. - S. 12.

**Süleymanova, A**. Bizim teatr // Kaspi. - 2014. - 4 aprel. - № 55. - S. 10.

**Talıbzadə, A**. Zümrüd şəhərinin kuklalar festifalı: "Bakı nağıl" mövzusunda improvizə // Mədəniyyət. - 2011. – 18 noyabr. - № 85. - S. 10-11.

**Təranə.** Kukla Teatrında "O olmasın, bu olsun" // Mədəniyyət. - 2010. - 22 sentyabr. - № 65. - S. 4.